UOT 94"19/…"

# XX ƏSRİN 80-Cİ İLLƏRİNDƏ LUBNƏN-ABŞ MÜNASİBƏTLƏRİ

**G.İ.QARAYEVA**
***Bakı Dövlət Universiteti***
***qarayeva1947@hotmail.com***

*Fələstin Azadlıq Təşkilatı Beyrutda və Cənubi Lubnəndə öz ştab-mənzilini açmışdı. Buradan isə İsrailin şimal rayonlarına fasiləsiz olaraq yürüşlər təşkil edlirdi. Təşkilatın döyüşçülərinin və terrorçu dəstələrin ölkənin şimal şəhərlərinə hücumlarına İsrail biganə qalmadı. 1982-ci ildə Lubnən sərhədlərini keçən İsrail ordusu ağır zərbələr endirdi. «Qaliley sülhü» əməliyyatı nəticəsində FAT–nın təşkilatı və hərbi strukturu məhv edildi. 1982-ci il avqustun 19-da ABŞ-ın vasitəçiliyi ilə İsrail və FAT arasında barışıq imzalandı. Ərəb dövlətləri FAT-nı kifayət qədər müdafiə etmədiyindən təşkilat ABŞ-İsrail tələbi ilə razılaşmalı oldu. Tələbə görə FAT Lubnəndən silahlı dəstələrini çıxarmalı idi. ABŞ Lubnənə NATO dövlətlərindən «çoxmillətli qüvvələr» yeritdi və 1982-ci il avqustun sonlarında ABŞ, Fransa, İtaliya, sonra isə Böyük Britaniya heyətləri Beyruta daxil oldular. Beləliklə, 1 sentyabrda Fələstin silahlı qüvvələri Beyrutdan çıxarıldı. ABŞ-ın vasitəçlik cəhdlərinə baxmayaraq, münasibətlər gərgin olaraq qalmaqda davam edirdi.*

**Açar sözlər:** vasitəçilik, sui-qəsd, Qaliley sülhü, görüş

24 iyul 1981-ci ildə İsraillə fələstinlilər arasında Lubnən-İsrail sərhədində bir-birlərinə atəş açmayacaqları barədə razılıq əldə edildi. Bununla yanaşı, 1982-ci ildə İsrail ordusu Sinay yarımadasını tərk etdi. İsrail üçün Misir, Urdun və Suriya sərhədlərində sakitlik yaranmışdı. Əldə edilən razılıq İsrail-Lubnən sərhədlərində də atəşkəsin bərpa edilməsinə ümidləri artırırdı. Lakin razılığın ömrü çox qısa oldu. 3 iyun 1982-ci ildə İsrail səfirinə Londonda sui-qəsdin təşkilində fələstinlilər suçlandı. Məlumdur ki, Fələstin Azadlıq Təşkilatı Beyrutda və Cənubi Lubnəndə öz ştab-mənzilini açmışdı. Buradan isə fələstinlilər İsrailin şimal rayonlarına fasiləsiz olaraq reydlər keçirirdilər. Yəhudi müəllifi Den Kon Şerbok bu məsələ ilə bağlı yazır ki, «FAT-ın terroristləri sərhədi keçərək dinc əhaliyə qarşı yürüşlər təşkil edirlər» (5,111). Ölkənin şimal hissəsini fələstinlilərdən qorumaq üçün Şaron plan hazırlamışdı. Plana görə Lubnən xristianlarına yardım göstərmək və onların köməkliyi ilə FAT-nın və Lubnəndə yerləşən Suriya ordularının ölkədən çıxarılmasına nail olmaq idi. 1982-ci ilin yanvarında Şaronla Falanqaçıların (Lubnən xristian silahlı qüvvələrinin) lideri Bəşir Cmayel arasında keçirilən görüşdə fələstinlilərə qar-

şı birlikdə əməliyyat həyata keçirmək qərara alındı (5,112). 6 iyun 1982-ci ildə 80 minlik İsrail ordusu iyirmi beş millik təhlükəsizlik zonası yaratmaq üçün Lubnənə daxil oldu. Falanqaçılar əməliyyata kömək edəcəklərinə vəd versələr də onu yerinə yetirməkdən çəkindilər.

Qeyd edək ki, Vaşinqton İsrailin Lubnənə hücüm edəcəyini öncədən bilmiş və hadisələrin qarşısını almaq üçün lazım olan tədbirləri görməmişdir. A.Xeyq öz memuarlarında yazırdı: «İsrailin baş naziri Begin hələ 1981-ci ilin oktyabrında İsrail ordularının Lubnənə hücuma hazırlaşması haqqında ABŞ-ı məlumatlandırmışdı. …. 25 fevral İsrailin ABŞ-dakı yeni səfiri – M.Arens açıq şəkildə İsrailin Cənubi Lubnənə qarşı hərbi əməliyyatlara başlayacağı haqqında xəbərdarlıq etmişdi» (9,276). Y.M.Primakov həmin fikri belə ifadə etmişdir: «İsrail, şübhəsiz, əmin idi ki, görüntüdə hansı şəkildə olsa da, rəsmi Vaşinqtonun reaksiyası mahiyyətcə İsrailin Lubnən təcavüzünə heç bir maneçilik yaratmayacaqdır. Əlbəttə, İsrail «əməliyyatı»na baxışda, ola bilsin ki, taktiki cəhətdən müəyyən uyğunsuzluq meydana gəlsin, lakin ABŞ-la İsrail arasında strateji fərqin olması mümkün deyil» (10,254-255). Qeyd edək ki, İsrailin Lubnənə yürüşü uzaqgörən məqsədi özündə ehtiva edirdi. Bildiyimiz kimi, ABŞ-ın Yaxın Şərqdə mövqeyinin möhkəmlənməsi istiqamətində atdığı addımlarda FAT və Suriya ciddi maneələr yaradırdı. Vaşinqton Misiri zərərsizləşdirməklə müəyyən müvəffəqiyyət qazansa da əslində Yaxın Şərqdə mövqelərini möhkəmləndirmək istiqamətində bu kifayət etmirdi. Əhalisinin xeyli hissəsinin xristian və qərb meylli qüvvələrin kifayət qədər olduğunu nəzərə alaraq, Səudiyyə Ərəbistanı, Misirdən sonra Lubnənin də ABŞ-la yaxınlaşmasını mümkün edə bilərdi. Belə vəziyyət iflasa uğramış Bağdad paktı, Orta Şərq komandanlığı kimi bir sıra blokların başqa ad və ünvanda gerçəkləşməsinə imkan yarada bilərdi. Öncə bu bloka Türkiyə ilə yanaşı Urdunun da daxil olması ehtimalı güclənirdi. Bu hücumla FAT-nın silahlı qüvvələrini Lubnəndən çıxarmaqla İsraili yaranmış real təhlükədən uzaqlaşdırmaq imkanı yaranardı. Burada Suriyanın da mövqeyinə kifayət qədər zərbə vurmaq məqsədi güdülürdü. Digər səbəb isə Lubnəndə amerikanpərəst hakimiyyətin formalaşdırılması da önəm daşıyırdı. Çünki baş verən hadisələr Lubnəndə prezident seçkiləri ərəfəsinə təsadüf edirdi.

6 iyun 1982-ci il müdaxiləsi isə əvvəlkindən fərqli olaraq daha strateci xarakter daşıdığından, bu müdaxilə ətrafında yaranan beynəlxalq münasibətlər də bir o qədər ziddiyyətli, gərgin və konkret oldu. 6 iyunda İsrailin 90 minlik ordusu Lubnən ərazisinin böyük hissəsini ələ keçirdi və Beyrutdan 15 km məsafədə mövqe seçdi. Əslində isə şimaldan cənuba doğru 50 km, 35 km isə qərbdən şərqə doğru uzanan Cənubi Lubnən kiçik ərazini əhatə edirdi (2,92). İsrail «Qaliley sülhü» adlandırılan təkrar, daha genişmiqyaslı yürüşə başladı. Beyruta müdaxilənin gedişində bombardman zamanı 20 mindən artıq lubnənli və fələstinli həlak olmuşdu (3,271).

7 iyun 1982-ci ildə sülh əməliyyatından bir gün sonra İran müdafiə nazirliyinin yüksək səviyyəli nümayəndə heyəti polkovnik Səliminin, ordu

komandiri polkovnik Seyyid Şirazi və İnqilabi Qvardiya komandiri Mohsen Rezainin rəhbərliyi ilə, Cənubi Lubnəndə İsrailə qarşı mübarizə təklifi ilə Dəməşqə gəldi. Həmin gün nümayəndə heyəti Assadla danışıqlar apardı və İran Prezidenti Homeneinin mesajlarını ona çatdırdı. İran lideri, «işğal olunmuş ərazilərdən və Cənubi Lubnənin sionizmdən azad edilməsinə hazır olduğunu» bildirdi (15,63). Ayrıca anlaşmada yazıldı ki, İsrailə qarşı savaşda iştirak etmək üçün İran qoşunları Lubnənə göndəriləcəkdir. İki gün sonra Nyu Yorkdakı konfransda, İranın xarici işlər naziri Əli Əkbər Vilayəti bəyan etdi ki, «Biz bu məsələyə ən birinci vəzifəmiz kimi baxırıq. Bu İran İslam Respublikasının Sionist rejiminə qarşı mübarizəsinin tərkib hissəsidir. İndi Müdafiə naziri, Quru Qoşunları komandiri və İnqilabi Qvardiya Korpusunun komandiri dəstəyin miqdarı və formasını təyin etmək üçün Suriyadadırlar. Bu səbəbdən biz narahat olmayacağıq. Əgər bizim Suriyadakı və Lubnəndəki qardaşlarımız bunu istəyirsə, biz müharibəyə qarışacağıq» (15,63).

Həmin il iyunun 14-də Avropa Birliyi (AB) İsrailə bir sıra öhdəliklər irəli sürən bəyanatla çıxış etsə də bu heç bir nəticə vermədi və 29 iyunda AB xarici işlər nazirləri yeni bir bəyanatla çıxış etdi. Brüssel bəyannaməsi kimi tanınan həmin qətnamə İsrailin Lubnəndən öz qoşunlarını çıxarmasını tələb edirdi. Qətnamə 1980-ci il Venesiya qətnaməsinə yaxın olsa da, burada Fələstin məsələsinin həllində ABŞ-ın mövqeyi daha konkret səslənirdi. Belə ki, Venesiya qətnaməsində «Fələstin xalqı üçün vətənin vacibliyi» vurğulanırdısa, Brüssel qətnaməsində bu «öz müqəddəratını təyinetmə hüququ və bu hüquqdan irəli gələrək həyata keçirilməsi vacib olan bütün vəzifələr» qeyd olunurdu. Lakin Lubnən məsələsinin həllində Fransa-Misir birgə addımları faktiki olaraq həmin qətnaməni arxa plana keçirmiş oldu. Bununla belə Parisin bu problemdə təşəbbüsü ələ almaq cəhdi boşa çıxdı. Təl-Əviv Fransanın prezidenti Mitteranın Beyrutun dağılmasını 1944-cü ildə nasistlər tərəfindən yandırıldığı və əhalisinin bir nəfər kimi məhv edildiyi fransız kəndi Oradur ilə müqayisə etməsinə qarşı rəsmi etirazını bildirmişdi (8,97).

3 iyulda Lubnənin baş naziri Ş.Vazzanın prezident Sarkis və ABŞ-ın xüsusi nümayəndəsi F.Həbiblə danışıqlarından sonra FAT öz mövqeyini bildirdi (5,256). Təşkilat Qərbi Beyrut əhalisini qırğından xilas etmək məqsədilə öz qüvvələrini şəhərdən çıxarmağa razılıq verirdi. Lakin belə bir şərt irəli sürürdü ki, İsrail qüvvələri paytaxtdan 5 mil uzaqlaşsınlar və Lubnən qüvvələri ilə birlikdə xarici qüvvələrin də nəzarət etdiyi zona yaradılsın. Qüvvələrin belə ayrılması Fransa və Misir tərəfindən hazırlanmış BMT-nin Təhlükəsizlik Şurasının qərar qətnaməsinə uyğun həyata keçirilməli idi.

4 iyulda İsrail hökuməti təklif olunan formada qərarı qəbul etmədi. İsrail Beyruta hücumları gücləndirdi. Belə olduqda Lubnənin baş naziri Vazzan İsrail Beyruta qarşı fəaliyyətini dayandırmayana qədər Amerika nümayəndələri ilə növbəti məsləhətləşmələr aparmaqdan imtina etdi (10,271). 29 iyulda BMT TŞ-sı İsraildən Beyrutun blokadasını götürmək haqqında çağırış qətnaməsi müzakirə olunan zaman ABŞ səsvermədə iştirak etmədi. Qeyd edək ki, BMT

TŞ-da Lubnən məsələsi müzakirə olunarkən ABŞ üç dəfə – ilk dəfə 9 iyun 1982-ci ildə TŞ 6 saat ərzində İsraildən atəşin dayandırılmasını və dərhal Lubnənin tanınmış beynəlxalq sərhədlərdən geri çəkilməsini tələb edərkən, ikinci dəfə 26 iyunda qoşunların Beyrutda ayrılmasını nəzərdə tutan Fransanın hazırladığı qətnaməyə və üçüncü dəfə isə 6 avqustda SSRİ-nin İsrailin Beyrutdan çıxması tələbinə veto qoymuşdur. ABŞ-ın bu «xeyirxah fəaliyyəti» İsrailə vaxt qazandıraraq, ona Qərbi Beyrutu mühasirəyə almağa və paytaxtı bombalamağa imkan vermişdi. 1 avqustda İsrail orduları Beyrutun beynəlxalq aeroportunu tutmuş və 4 avqustda isə üç istiqamətdə Qərbi Beyruta hücuma keçə bilmişdilər.

Hadisələrin belə istiqamətdə inkşafına siyasət adamları birmənalı yanaşmamış, öz fikirlərini müxtəlif səpgidə ifadə etmişdilər. Corctaun mərkəzinin əməkdaşı E.Lattvak qeyd edirdi ki, İsrailin Lubnənə müdaxiləsi həm İsrail üçün, həm də ABŞ üçün böyük əhəmiyyət kəsb edir (9,277). Texas ştatından olan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Çarlz Uilson Cənubi Lubnəndən qayıdarkən mətbuata verdiyi müsahibədə demişdir: «Çoxsaylı maddi və insan itgisinə baxmayraq, Lubnən əhalisi sevinirlər ki, İsrail onların ölkəsinə soxulmuş, FAT-nı oradan çıxaracaqlar» (7,86). Məşhur Luis Xarris institutunun keçirdiyi sorğunu əsas götürərək Xarris eyni fikri digər formada ifadə etmişdir. Təbii belə bir fikir çaşqınlıq yaratmğa xidmət edir. Çünki az Lubnən vətəndaşı tapılar ki, ölkəsinin dağıntısı və çoxsaylı insan tələfatı hesabına fələstinlilərin ölkəni tərk etməsini istəsinlər. Uilson həmin fikirləri söyləyərkən yəqin ki, fələstinlilərin ölkəni tərk etməsinin qızğın tərəfdarı Lubnənin sağ xristian qüvvələrini nəzərdə tutmuşdur.

1982-ci il avqustun 19-da ABŞ-ın vasitəçiliyi ilə İsrail və FAT arasında barışıq imzalandı (13,35). Vaxtilə ərəb birliyi ideyasının carçıları olan ərəb dövlətləri FAT-nı kifayət qədər müdafiə etmədiyindən təşkilat ABŞ-İsrial tələbi ilə razılaşmalı oldu. Tələbə görə FAT Lubnəndən silahlı dəstələrini çıxarmalı idi. ABŞ Lubnənə NATO dövlətlərindən «çoxmillətli qüvvələr» yeritdi və 1982-ci il avqustun sonlarında ABŞ, Fransa, İtaliya, sonra isə Böyük Britaniya heyətləri Beyruta daxil oldular (1,221). Beləliklə, 1 sentyabrda Fələstin silahlı qüvvələri Beyrutdan çıxarıldı.

Həmin məsələ ilə bağlı Londonda çıxan «Midl ist» jurnalı yazırdı: «F-15 və F-16 qırıcılarından 1981-ci ilin iyununda ilk dəfə İraq nüvə reaktorunu bombalayan zaman gedən hərbi əməliyyatlarda, sonra isə Lubnənə hücum zamanı istifadə edilmişdi. …. Sözdə ABŞ İsrailin hərəkətlərini alqışlamasa da, bu məlumatdan Vaşinqtonun xəbəri olmaması mümkün deyil» (10,255). Hadisələrin kəskin şəkil alması ABŞ prezidentini qırıcıların növbəti partiyasının İsrailə göndərilməsini dayandırmağa vadar etdi. İsraillə Misir arasında məşhur Kemp-Devid müqaviləsinin bağlanmasına nail olmuş ABŞ prezidenti C.Karter «Şpiqel» jurnalına müsahibəsində qeyd etmişdir ki, «İsrailin Lubnən üzərinə bizim müdafiə və təşviq etdiyimiz özünü doğrultmayan hücumu vəziyyəti

daha da pisləşdirdi» (6,270). Prezident Karterin fikrinə görə bütün Lubnənin bombalanması «heç bir qanuni və mənəvi əsaslara söykənmir».

28 avqust 1982-ci ildə «Kətaib» partiyasının sağ xristian rəhbərlərindən biri, falanqaçıların lideri Bəşir Cmayel Lubnənin prezidenti seçildi. O, ABŞ-ın və İsrailin istədiyi seçim idi. Lakin o bu vəzifədə çox qala bilmədi. Yarım ay keçmiş, yəni 14 sentyabrda rəhbəri olduğu partiyanın qərargahının partlaması səbəbindən o dünyasını dəyişdi. Bəşir Cmayelin ölümündən sonra hakimiyyətdə vakant prezident postuna Əmin Cmayel gəldi (14,118).

1982-ci il sentyabrın 1-də isə ABŞ prezidenti R.Reyqan Lubnəndəki vəziyyətlə əlaqədar Fələstin probleminə dair təkliflə çıxış etdi. Təklifdə göstərilirdi ki, İsrailin nail olmaq istədiyi təhlükəsizlik üçün real və möhkəm sülhə nail olmaq vacib şərtdir. Fələstinlilərə isə bildirilirdi ki, onların siyasi mübarizələrinin uğuru İsrailin təhlükəsiz gələcəyinə təminat vermələrindədir.

İsraillə barışıq pozulduqdan sonra vəziyyət yenidən daha da kəskin xarakter almağa başladı. Lubnəndəki ABŞ, Fransa, İtaliya hərbi kontengentinə İngiltərə də 47 nəfərdən ibarət hərbi dəstə göndərdi. Yeni hərbi əməliyyatlar nəticəsində amerikalılar 264, fransızlar 88, italyanlar 1 nəfər itgi verdilər. Prezident sarayını qoruyan İngiltərə isə bu döyüşlərdə itgi vermədi (11,278). Lubnən böhranı nəticəsində Tir, Sayda, Nabatiyə şəhərləri və onlarla kənd tamamilə dağılmışdı.18 aprel 1983-cü ildə Qərbi Beyrutda yerləşən Amerika səfirliyi partladıldı, dünyasını dəyişən 60 nəfərdən 17-si amerikalı idi (12,13).

Ağ Evin nümayəndələri həftədə bir neçə dəfə Təl-Əviv və Beyruta səfər etdilər. ABŞ-ın vasitəçilik missiyası öz bəhrəsini verdi. Belə ki, 17 may 1983-cü ildə Lubnənlə İsrail arasında «Sulh haqqnda müqavilə» imzalandı. Bu müqavilədə üçüncü imza ABŞ-a məxsus idi. Belə bir vəziyyətdə prezidenti Ə.Cmayelin İsrail ilə separat sülh müqaviləsi imzalaması Lubnənin müsəlman icması tərəfindən kəskin etirazla qarşılandı. Bu müqavilənin imzalanması Sovet İttifaqının müttəfiqi Suriyanın da mövqeyinin zəifləmiəsinə xidmət edirdi. 1983-cü ilin iyununda xarici işlər naziri İ.Sanemin, iyul və dekabr aylarında ölkə prezidenti Ə.Cmayelin ABŞ-a etdikləri səfər istər Lubnəndaxili sabitliyin, istərsə də regiondakı vəziyyətin normallaşması və beynəlxalq münasibətlərdəki gərginliyin qismən azaldılması istiqamətində əməli addımlar oldu. Belə ki, həmin səfərlər zamanı əldə olunmuş razılaşmalar ilk növbədə ABŞ-ın maraqlarına cavab verən Ə.Cmayel hökumətinin mövqeyinin güclənməsinə şərait yaradırdı. Həmin ilin oktyabr ayında ABŞ-ın vitse prezidenti C.Buşun, aprel-may və iyul aylarında dövlət katibi C.Şultsun Lubnənə səfəri də bu nöqteyi-nəzərdən kifayət qələr uğurlu olmuşdur. Məhz bu görüş və səfərlərin, eləcə də bu görüşlər nəticəsində əldə olunmuş razılıqların nəticəsi idi ki, Lubnən İran ilə münasibətlərini tamamilə əks müstəviyə keçirdi. Belə ki, 1983-cü ilin noyabrında Lubnən hökuməti İranla diplomatik əlaqələri kəsdi, Liviya ilə isə bu münasibətləri dondurduğunu bəyan etdi.

1983-cü ilin sentyabrında Lubnəndə hərbi əməliyyatlar yeni vüsət aldı. Ölkə daxilində də vəziyyət gərginləşmişdi. Vəziyyətin gərginliyi şəraitində

ABŞ 6-cı donanmanın zərbə qruplarını Lubnən sahillərinə yönəltdi və Fələstin Vətənpərvər Qüvvələrinin, eləcə də Suriya qoşunlarının mövqelərinə zərbələr endirildi. Belə bir vəziyyətdə Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə Lubnən qruplaşmaları arasında atəşkəs haqqında razılaşma əldə olundu. Oktyabrın 31-dən noyabrın 4-dək Cenevrədə keçirilmiş konfransda isə İsrail-Lubnən müqaviləsinin Lubnəndaxili sabitliyin əldə olunmasında mane rolu oynadığı faktoru irəli sürülərək konkret nəticə əldə edilmədi.

Müttəfiqlərin Lubnəni tərk etməsindən sonra prezident Ə.Cmayel sülh danışıqları üçün vasitəçilik etməyi Suriyadan xahiş etdi. Suriyanın fəal vasitəçiliyi ilə 1984-cü il martın 5-də münaqişə aparan tərəflər arasında barışıq imzalandı. Lakin Lubnənin Milli birlik hökuməti bu barışıq çərçivəsində də ölkədə siyasi sabitliyi bərpa edə bilmədi. Belə ki, müsəlmanlar və sağ xristianlar, şiələr və fələstinlilər, şiələr və druzlar, islam fundamentalistləri və dünyəvi qüvvələr arasında hərbi toqquşmalar davam edirdi. Lubnəndə davam edən vətəndaş müharibəsinin qarşısını almaq məqsədilə Suriya vasitəçilik missiyasını öz üzərinə götürdüyünü bəyan etdi. Əslində Dəməşqin bu addımı taktiki uğuru təmin etdisə də, strateji nöqteyi-nəzərdən həmin vasitəçiliklə əldə edilən razılaşma ABŞ və Avropa Birliyinin Lubnəndə toqquşduğu maraqlar kontekstində o qədər də möhkəm deyildi (11,280).

Lubnəndəki hadisələrin sürətli inkişafı Lubnən-ABŞ münasibətlərində əldə olunmuş nailiyyətləri sual altına alırdı. Sağ xristian qüvvələrinə qarşı döyüşən Milli Vətənpərvər Qüvvələrin güclü və qətiyyətli hərbi əməliyyatları, sağ xristian qüvvələrini, eləcə də onların müttəfiqləri olan ABŞ və NATO qüvvələrini çıxılmaz vəziyyətə saldı. Hərbi əməliyyatlar nəticəsində Qərbi Beyrut və Lubnən paytaxtına gedən bütün yollar və rayonlar Milli Vətənpərvər Qüvvələr tərəfindən tutuldu. Nəticədə 1984-cü ilin fevral-mart aylarında «sülhməramlı qüvvələr» Lubnən ərazisindən çıxarıldı. Belə bir vəziyyətdə Lubnən hökuməti 1984-cü il martın 5-də İsrail-Lubnən müqaviləsinin ləğv olunduğunu bəyan etdi. Bundan sonra Suriya Lubnən məsələsində liderliyi ələ alsa da, nəticəni yenə Lubnəndaxili qruplaşmaların apardıqları hərbi əməliyyatlar diqtə edirdi. Odur ki, Milli Vətənpərvər Qüvvələrin uğuru Lubnən məsələsinin bir qədər lokallaşmasına şərait yaratdı. Əslində İsrailin siyasəti ölkədə demokratik və vətənpərvər qüvvələri parçalanmış vəziyyətdə saxlayırdı. Sağ qüvvələr ölkənin ABŞ yönümlü istiqamətinə önəm verirdi. Bu cəhd isə sosialist istiqamətli ərəb ölkələri ilə münasibətlərin korlanması demək idi.

Hadisələrin belə qaynar çağında A.İ.Vavilovun təbirincə desək bu kiçik və çox əzablı ölkənin siyasi arenasına xarici işğalçılara qarşı mübarizə aparan «Hizbullah» («Allah partiyası») çıxdı (3,163). 1984-cü ildə Beyrutda «Hizbullah»-ın hücumu zamanı amerikalılar 241 hərbi qulluqçusunu itirdilər (3,163).

1985-ci il dekabrın 28-də Dəməşqdə Lubnən qüvvələri, Amal hərəkatı və Mütərəqqi Sosialsit Partiyası arasında üçtərəfli danışıqlar «Lubnən böhranının nizamlanmasına dair milli razılaşma» haqqında müqavilə bağlanması ilə başa çatdı. Razılaşmanın əsas mahiyyəti konfessiosial sistemdən tədricən

uzaqlaşma və gələcəkdə onun ləğvini nəzərdə tuturdu. Lakin üçtərəfli sazişin həyata keçirilməsi mümkün olmadı. Belə ki, üçlüyə qarşı çıxış edən Kətaib partiyası, Lubnən qüvvələri, eləcə də prezident Ə.Cmayel belə bir sazişi qəti olaraq qəbul etmədi. Əslində həmin sazişin həyata keçirilməyəcəyi, eləcə də onun digər qüvvələr tərəfindən qəbul edilməyəcəyi əvvəldən bəlli idi. Belə ki, Lubnən böhranı başlandığından bu böhranda Moskvanın ştrixlərini görmək mümkün idi. Burada Mütərəqqi Vətənpərvər Qüvvələrin nümayəndə heyətinin Moskvaya səfəri, eləcə də üçtərəfli sazişdə Mütərəqqi Sosialist Partiyasının iştirakı və ümumiyyətlə, üçlərin sazişində SSRİ-nin maraqları tam olaraq özünü büruzə verirdi. Burada Mütərəqqi Vətənpərvər Qüvvələrə daxil olanlar əslində sosialist yönümlü qüvvələr idi. Ona görə də amerikanpərəst, qərbpərəst siyasət yeridən ölkə prezidenti Ə.Cmayel, eləcə də digər qüvvələr həmin qruplaşmaların vahid siyasətini qəbul edə bilməzdi. Bu da Lubnən böhranında ikiqütblü sülh sistemi şəraitində ABŞ-SSRİ rəqabətinin bariz nümunəsi idi.

12 mart 1985-ci ildə Zrariri qırğınından sonra Təhlükəsizlik Şurası İsrailin Cənubi Lubnəndə zorakılığına qarşı qətnamə qəbul etmək istədikdə ABŞ veto qoymuşdu. Belə olduqda Lubnənin baş-naziri Rəşid Karama etirazını bildirmişdi: «Düşmən faşist üsullarından istifadə edir…. Təcavüzkar artıq nə qanunla, nə də beynəlxalq prinsiplərlə hesablaşmır. Lubnənlilərin milli müqavimətinə gəldikdə isə özlərini müdafiə etməyə qanuni haqları olduğuna görə öz borclarını yerinə yetirirlər» (12,30).

Bu dəfə Amerika rəhbərliyi R.Reyqan başda olmaqla hadisəyə qarışmağı qərara aldılar. ABŞ, Fransa və İtaliyanın sülhməramlı məqsədlərlə hərbi kontingenti Lubnənə göndərildi, onlar nəinki vəziyyəti nizama sala bildilər, əksinə daha da kəskinləşdirdilər. Lubnəndə hələ indiyə qədər ürək ağrısı ilə «sülh məramlı müdaxilə» zamanı Amerika artilleriyasından atılan iri həcmli mərmilərin açdığı dəliklərin izlərini göstərirlər. Vaşinqtonun müdafiəsi İsrailə onsuz da kiçik olan Lubnən ərazisinin 10%-ni öz nəzarətləri altında saxlamağa imkan verdi.

1985-ci ilin aprel ayında ABŞ dövlət katibinin köməkçisi R.Morvinin Lubnənə səfəri zamanı sülhməramlı qüvvələrin, xüsusilə ABŞ hərbi kontingentinin regiondan çıxarılmasından sonra yaranmış vəziyyət, eləcə də iki ölkənin yaranmış böhrandan sülh yolu ilə çıxmağın bəzi məqamları danışıqların əsas mövzusu olsa da, ümumən regiondakı qüvvələr nisbəti və bu nisbətin regiondaxili və beynəlxalq münasibətlərə təsiri məsələsi də ön planda olmuşdur. Həmin səfər zamanı ölkə prezidentinin ilin sonunadək ABŞ-a səfəri məsələsi də gündəmə gətirilmişdir. Səfər zamanı Lubnən böhranı regiondaxili münasibətlər kontekstində danışıqların əsas mövzusu olmuşdur. Böhrana regiondaxili münasibətlər sistemində yanaşılması təsadüfi deyildi. Çünki Lubnəndə əsas təsiredici xarici qüvvə kimi İsrail və Suriya çıxış edirdi. Həmin dövr Suriyanın SSRİ ilə yaxın münasibətlərini nəzərə alsaq, onda İsrailin buradakı balansı bərabərləşdirmə və proseslərə nəzarət siyasəti gözdən qaça bilməz ki, bu da birbaşa Vaşinqtonun maraqlarına tam uyğun idi. Prezident Ə.Cmayelin

ABŞ-a səfəri siyasi müşahidəçilər tərəfindən müxtəlif cür qiymətləndirilirdi. Belə ki, Vaşinqton-Beyrut münasibətlərinin hamar müstəviyə çıxarılması bir sıra problemlərin-istər Lubnəndaxili, istər regional, istərsə də beynəlxalq miqyasda həllinə bağlı idi. Bir qrup müşahidəçi bu səfəri nəticəsiz, digər qrup müşahidəçi isə səfərin adi məsləhətləşmə ilə bitdiyi fikrini irəli sürürdü. Fikrimizcə səfər məsləhətləşmə xarakteri daşımaqla və yaxın bir-iki il ərzində hadisələri nəzarətdə saxlamaqla yaranmış vəziyyətdən çıxış yollarını araşdırmaq istiqamətində birgə fəaliyyətin konturlarını cızmaq xarakteri daşımışdır və 1986-cı ildə Lubnən-ABŞ rəsmilərinin qarşılıqlı səfərlərinin olmaması da bu fikri əsaslandırmağa imkan verir. Bu baxımdan, 1986-cı ildən fərqli olaraq 1987-ci ildə ABŞ administrasiyasının bir sıra nümayəndələrinin Lubnəndə olması  diqqəti daha çox çəkir. Belə ki, həmin dövrdə Lubnən böhranında həllini gözləyən məsələlərdən biri Cənubi Lubnəndəki İsrail hərbi birləşmələrinin yerləşməsi idi. Beyruta səfər edən Vaşinqton rəsmiləri ilə danışıqların əsas mövzusu İsrail qoşunlarının Lubnən ərazisindən çıxarılması idi.

Lakin Lubnəndaxili proseslərin sürətli inkişafı regional və beynəlxalq səviyyədə aparılan hər hansı danışıq və müzakirələri sual altına alırdı. Bu baxımdan 1988-ci il hadisələrini qeyd etmək daha məqsədəuyğun olardı. Əslində bu hadisələr ABŞ-SSRİ rəqabətinin kuliminasiya nöqtəsi idi desək səhv etmərik. Həmin hadisələri xarakterizə edərək qeyd etmək olar ki, 1988-ci ildə Lubnəndə prezident seçkilərinin keçiriləcəyi il olduğundan münaqişə aparan tərəflərin səyləri daha ciddi və kəskin xarakter almışdı.

Ölkə konstitusiyasına uyğun olaraq prezident seçkiləri Lubnəndə avqust-sentyabr aylarında olmalı idi. Seçkilərin keçiriləcəyinə Lubnən əhalisinin əksəriyyətinin ümidi böyük olsa da hadisələr tamamilə başqa cür məcrada inkişaf edirdi. Məlum olduğu kimi, həmin ilin birinci yarısında ölkədə siyasi islahatların həyata keçirilməsinə başlanmışdı. Lakin sağ xristian qüvvələr konfessional sistemin dəyişdirilməsini istəmədiyindən islahatlar prezident seçkisi ərəfəsində nəinki sual altına alındı, hətta ölkədə dövlət strukturları iki hissəyə bölündü. Prezident seçkilərinin yaxınlaşması ilə əlaqədar islahatların muzakirəsi seçkilərdən sonraya keçirildi. Belə bir vəziyyətdə, sosialist yönümlü iki namizəd S.Francye və M.Dager prezidentliyə namizədliklərini irəli sürdü. Lakin bu namizədləri Mütərəqqi Vətənpərvər Qüvvələr və Suriyanın dəstəkləməsi ölkədə siyasi gərginliyin artmasını göstərməklə bərabər siyasi proseslərdə aparıcı rolu sosialist ideyalı qüvvələrin ələ almasını da nümayiş etdirirdi. Belə bir vəziyyət isə xüsusilə ölkə başçısı Ə.Cmayel və sağ xristian qüvvələri qətiyyən qane edə bilməzdi. Ona görə də sağ xristian qüvvələr bu namizədləri Suriyapərəst adlandıraraq onların namizədliklərini qəbul etmədiklərini bildirdilər. Nəticədə Lubnən parlamenti prezident seçilməsi üçün kvorum əldə edə bilmədi. Ölkə başçısı Ə.Cmayel isə hakimiyyəti təhvil verməzdən əvvəl general M.Aunu, müsəlman qüvvələri isə S.Xossu baş nazir kimi tanıdılar. Nəticədə ölkədə ikihakimiyyətlilik yarandı. Formal ikihakimiyyətlilik əslində Lubnəndə hakimyyətsizliyə gətirib çıxarmışdı. Bu isə ikiqütblü sülh sisteminin mövcud-

luğu şəraitində ABŞ və SSRİ-nin nüfuz bərqərarı uğrunda mübarizəsnin Lubnəndə təzahürünün bariz nümunəsi idi. Beləliklə, Cabir Həsən Əlinin qeyd etdiyi kimi «Ə.Cmayelin səlahiyyət müddəti bitdikdən sonra yeni prezident seçkiləri keçirilməsi hətta Suriya və ABŞ-ın da müdaxilə etməsinə baxmayaraq öz həllini tapmadı» (4,23). 1989-cu ildə Lubnəndə münaqişə tərəfləri arasında hərbi əməliyyatlar yenidən başladı. Hərbi əməliyyatların başlanmasınadək ABŞ-ın tərəfləri stol arxasında oturtmaq cəhdləri boşa çıxdı.

Bütün bu məsələlərə rəğmən qeyd edək ki, 80-ci illərdə Lubnəndə ABŞ-ın vasitəçilik missiyası özünü doğrultmadı. ABŞ-ın vasitəçiliyi ilə İsrail-Lubnən razılaşması bağlansa da Lubnəndə baş verən vətəndaş müharibəsi kontekstində Suriyanın burada təşəbbüsü ələ ala bilməsi əslində Vaşinqtonun qazandığı nailiyyətləri heçə endirmiş oldu.

## ƏDƏBİYYAT


1. Rafiq bəy İsmayıl, Nərgiz Axundova, Aida Bağırova. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. Bakı: Adiloğlu, 2008 , 655 s.
2. Беляков В. Хроника агрессии: край, истекающий кровью. Кровавые следы американского империализма. М.: Мысль, 1982, 300 с.
3. Вавилов А.И. Политика США в мусульманском мире на примере арабских стран. Опыт критического анализа. М.: Библос консолтинг, 2009, 351 с.
4. Джабер Хасан Али Возрождение. Азия и Африка сегодня. 6/96, М.: Наука, 3 с.
5. Ден Кон Шербок, Дауд эль-Алами. Палестино-израильский конфликт. Две точки зрения. М.: Гранд, 2002, 315 с.
6. Гусейнов В., Денисов А, Савкин Н., Демиденко С. Большой Ближний Восток. М.: Олма Медиа Групп, 2007, 591 с.
7. Кондрашов С. Кровь и холоднокровные расчеты. Кровавые следы американского империализма. М.: Мысль, 1982, 300 с.
8. Лжсев С. Ливанская трагедия. Кровавые следы американского империализма. М.: Мысль, 1982, 300 с.
9. Овинников Р.С. Зигзаги внешней политики США. М.: Политиздат, 1986, 400 с.
10. Примаков Е.М. История одного сговора. М.: Политиздат, 1985, 313 с.
11. Размеров В.В., Иванова И.М. Западная Европа на мировой арене. Часть 2, М.: Академия наук СССР, Ин-т мировой экономики и международных отношений, 1986, 317 с.
12. Стоклицкий С.Л. Ливан тревоги и надежды. М.: Наука, 1988, 171 с.
13. Suleyman Takr əd-Din. Ət-tətəvvur ət-tərix li-l-muşkila əl-Lubnəniyyə. Beyrut, əl-Minavvar, 1979, 355 s.
14. Sandra Mackey. Mirror of the arab World. Lebanon in Conflikt. New York, wwwNorton & company, 2008, P.302
15. Syria and İran. Diplomatik Alliance and PoWer Politics in the Middle East. London-New York, Oxford, 2009, P.359

# ЛИВАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ В 80-Е ГОДЫ XX ВЕКА

**Г.И.КАРАЕВА**

**РЕЗЮМЕ**

В Бейруте и в южном Ливане Палестинская освободительная организация создала свой штаб. Сюда из северных районов Израиля совершались беспрерывные нападения. Израиль не смог равнодушно взирать на организацию боевиков и учащение нападения террористических отрядов на северные города страны. Совершая упреждающий удар, армия Израиля пересекла границу Ливана в 1982 г. В результате операции «Мир Галилее» была практически уничтожена организационная и военная структура ООП в этом регионе. 19 августа 1982 году благодаря США между Израилем и ООП было заключено перемирие. Причиной перемирие являлась то, что Арабские страны не достаточно защищали ООП, поэтому организации пришлось согласиться с требованием США. В связи с требованием этого соглашения ООП должны были вывести из Ливана вооруъенные силы. США направил на Ливан «многонациональные силы» из государств НАТО и в конце августа 1982 года вошли в Бейрут США, Франция, Италия, в конце Великобритания. Таким образом, Палестинские вооруженные силы вышли из Бейрута. Не смотря на посредничество США, отношения продолжались оставаться накаленными.

**Ключевые слова:** посредничество, заговор, мир Галилея, встреча

# RELATİONS BETWEEN LEBANON AND USA İN THE 80S OF THE XX CENTURY

**G.I.GARAYEVA**

**SUMMARY**

The article deals with relations between Lebanon and USA in 80s of the XX century.

Palestinian liberation organization established its headquarters in Beirut and south Lebanon. There were constant movements from here to northern regions of Israel. Israel, in its turn, could not remain indifferent to the aatacks. The Israel army crossed the borderline of Lebanon in 1982. As a result of “Galileo peace” operation the organization and its military structure were liquidated. Thanks to USA, Israel and PLO reached a peace agreement on August 19, 1982.

**Key words:** mediation, conspiracy, peace of Galileo, meeting